BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2011*

# TARİX

UOT 94 (470) "16/18"

## XIX ƏSRİN II YARISINDA ŞƏRQİ SLAVYAN ÖLKƏLƏRİNDƏ SƏNAYENİN İNKİŞAFI HAQQINDA

**T.T.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***veliyevtofiq@mail.ru***

*Məqalədə Şərqi Slavyan ölkələrində metallurgiya, toxuculuq, yeyinti və digər sənaye sahələrində kapitalizmin inkişafı ilə əlaqədar baş vermiş irəliləyişlərdən və fəhlələrin təşəkkül mənbələrindən bəhs edilir.*

**Açar sözlər:** Şərq, sənaye, fəhlə, inkişaf, texnika

XIX əsrin II yarısının sənaye tarixinə dair əsərlər sayca çoxdur. Bunlardan P.Xromovun məlum əsəri bəzi qüsurlarına baxmayaraq, bu gün də öz elmi əhəmiyyətini itirməmişdir. Burada yalnız sənaye tarixi deyil, dəmir yol çəkilişi, ölkənin maliyyə vəziyyəti, iqtisadi fikir və s. problemlər də işıqlandırılmışdır (14, 173-227).

K.Pajitnovun elmi fəaliyyəti çoxcəhətlidir. Onun toxuculuq sənayesinə həsr edilmiş kitabı bizim üçün daha maraqlıdır. Çünki burada Azərbaycana aid materiallar da vardır. Lakin bunların böyük əksəriyyəti qüsurludur. Bunun əsas səbəbi Azərbaycana aid faktik materialın rəsmi dövlət orqanlarının hesabatlarından götürülməsidir (9, 75-151).

V.Yatsynski XIX əsr tarixinin müxtəlif problemlərindən yazmışdır. Lakin onun əsərləri əsasən ictimai-iqtisadi məsələlərə həsr edilmişdir (16, 120-203).

P.Rındzyunski rus tarixçilərinin yaşlı nəslinin nümayəndəsidir. Onun kapitalizmin Şərqi Slavyan ölkələrində bərqərar edilməsinə həsr edilmiş əsərində kənd təsərrüfatı ilə yanaşı sənaye tarixi də verilmişdir. Statistik material cəhətdən çox zəngin və elmi ümumiləşdirilmələri həqiqətə daha uyğundur (12, 185-228).

İqtisadi tarixin öyrənilməsində L.Şepelyovun xidməti böyükdür. Səhmdarlığın tarixi ilk dəfə onun əsərlərində tədqiq edilmişdir. Səhmdarlığa həsr edilmiş kitabında Azərbaycanın iqtisadi həyatında səhmdar cəmiyyətlərinin

roluna geniş yer ayrılmışdır. 1861-ci ilədək sənayedə hakim forma manufaktura olmuşdur. İslahatdan sonra vəziyyət dəyişmiş, fabrik – zavodlar istehsalda tədricən hakim mövqe tutmağa başlamışdılar. Bu proses çoxmu davam etmişdir? Nə vaxt başa çatmışdır? Bu kimi və digər suallar uzun illərdir кi, rus – sovet tarixşünaslığında ara-sıra elmi mübahisələrə səbəb olur (15. 79-133).

Hələ 1892-ci ildə F.Engels Nikolay Danielsona (o, «Kapital»ın I cildini Lopatinlə 1872-ci ildə, II-III cildini 1885 və 1895-ci illərdə rus dilinə tərcümə etmişdir – T.V) məktubunda Rusiyadakı sənaye çevrilişinin təxminən 1856-1880-ci illər arasında baş verdiyini göstərmişdir (7, 119). XX əsrin 20-ci illərində bu məsələ, yəni sənaye çevrilişi məsələsi N.Pokrovskinin «Rusiya tarixi qısa oçerklərdə» əsərində təhlil edilmişdir. Onun fikrincə, bu çevriliş hələ keçən əsrin 30-cu illərində baş vermişdir.

XX əsrin 30-cu illərində bu problem tarixçilərin və iqtisadçıların diskusiyasına səbəb oldu. 1935-ci ildə akad. S.Strumilinin «Rusiyada və SSRİ-də qara metallurgiya» əsəri çapdan çıxdı. O, burada çevriliş üçün 1861-ci ili ayırıc hesab edirdi. 1944-cü ildə həmin əsərin ikinci nəşrində o, əvvəlki fikrindən geri çəkilmiş və sənaye çevrilişinin XIX əsrin 30-40-cı illərində baş verdiyini söyləmişdir (13, 222). Bu diskusiya 40-cı illərdən başlamış, XX əsrin sonuna qədər davam etmişdir. 50-ci illərdə bu diskusiyaya V.Yatsunski, P.Rindzyunski və bir çox başqa müəllif də qoşulmuşdu. P.Lyaşşenko özünün göstərilən əsərində sənaye çevrilişinin 30-cu illərdən islahata qədər davam etdiyini söyləmişdi (6, 305). K.Pajitnov və V.Yatsunski çevrilişin başlanması vaxtına etiraz etməsələr də onun başa çatmasını 70-ci illərə aid edirdilər. Sonralar V.Yatsunski bunu 80-ci illərin əvvəlinə qədər çəkmişdi (16, 185). P.Rindlzyunski də demək olar ki, onlarnan həmfikir idi. Amma sənaye çevrilişinin başlanmasını 50-ci illərin ortalarından götürürdü (12, 29). A.Solovyovaya görə sənaye çevrilişi keçən əsrin 90-cı illərinin ortalarında başa çatmışdır (10, 228).

1983-cü ildə «Rusiya fəhlə sinfinin tarixi» adlı iri həcmli əsər çapdan çıxmışdır. Bu əsərdə də sənaye çevrilişinin başa çatması 90-cı illərə gətirilir (müvafiq fəslin müəllifi A.Solovyovadır). (10, 217-245). Əsərin 1987-ci ildə 2-ci nəşri ilə əlaqədar müzakirəsi olmuşdur. Redaksiya heyətinin təklifilə milli respublikaların mütəxəssisləri, o cümlədən Azərbaycan tarixçiləri, əsər haqqında öz fikirlərini bildirmişlər. Bu sətirlərin müəllifi əsərə geniş bir rəy yazıb göndərmişdi (10, 49). Burada əsərin yaxşı cəhətləri və nöqsanları göstərilmişdir. Sənaye çevrilişinin dövrü məsələsinin üzərində xüsusi olaraq dayanılmışdır. Əsas diqqət sənaye çevrilişinin başa çatması dövrünə yönəldilmişdir. Fabrıк – zavod istehsalının artıq 80-ci illərin əvvəlində demək olar кi, əsas sənaye sahələrində və sənayenin ümumi yekununda üstün mövqe tutduğu göstərilmişdir.

80-ci illərin ikinci yarısından Rusiyada, eləcə də milli ucqarlarda, səhmdarlığın sənayedə hakim rola malik olması, müəssisələrin kapitalistcəsinə təşkili formalarının xüsusi çəkisinin bütün sənaye sahələrində üstünlüyü, həmçi-

nin inhisarların yaranması və inkişafı əsas verir deyək ki, sənaye çevrilişi 80-ci illərin ortalarında başa çatmışdır. Çünki imperiya sənayesi bu dövrdən inhisarçı kapitalizmə keçid mərhələsinə qədəm qoymuşdu.

XIX əsrin 60-70-ci illərində kəndli islahatlarının həyata keçirilməsi kənd təsərrüfatı məhsullarının görünməmiş artımına səbəb olmuşdu. Bu məhsulların çoxu, xüsusən texniki bitkilər, sənaye sahələri üçün xammal rolunu oynayırdı (2, 56-57).

İslahatdan sonra sənayedə canlanma bilavasitə iri sənaye ilə bərabər bir sıra istehsal sahəsində xırda əmtəə istehsalı və manufakturanı xeyli inkişaf etdirdi. Bu, qanunauyğun bir proses kimi, hələ yüksək inkişaf mərhələsinə keçməmiş sənaye sahələrini əhatə etməmişdi. Texniki – təşkilati cəhətdən qabaqcıl olan və nisbətən erkən kapitalist inkişaf yoluna düşmüş sahələr isə artıq fabrik-zavod mərhələsinə keçmişdi. Ümumiyyətlə, islahatdan sonra bir müddət sənaye məhsulunun ümumi yekununda hələ də xırda müəssisələr üstünlüyə malik idilər. Lakin təbii olaraq, bu vəziyyət uzun sürə bilməzdi. Çünki iri maşınlı sənayenin inkişafı üçün hər cəhətdən əlverişli şərait yaranmışdı. Şərqi Slavyan ölkələrinin hər yerində xırda istehsal heç də eyni dərəcədə inkişaf etməmişdi. Kustar sənayenin nisbətən geniş yayıldığı ərazilər şimal-şərq və şimal-qərb rayonları idi. Şimal-şərq dedikdə, başlıca olaraq Vyatsk, Perm, Kostroma, Kazan və onların sərhədinə yaxın olan quberniyalar, şimal-qərb dedikdə isə Novqorod, Tver, Olonetsk və digər quberniyalar nəzərdə tutulur. Daha doğrusu, əkinçiliyin nisbətən zəif inkişaf etdiyi bütün quberniyalarda xırda istehsal üstünlüyə malik idi.

Ənənəvi sənaye rayonlarında – Mərkəzi sənaye quberniyalarında (Vladimir, Yaroslav, Tula, Ryazan, Moskva və s.) belə xırda istehsal hələ də öz mövqeyini qoruyub saxlayırdı. Qaratorpaq zonada da xırda istehsal geniş yayılmışdı. Bu istehsalın intişar tapdığı ərazilərdə ondan başlıca olaraq kənd əhalisi və qismən də şəhərlilər istifadə edirdilər. Xırda istehsalın özü heç də eyni kateqoriyalardan olan müəssisələri əhatə etmirdi. Burada müxtəliflik hökm sürürdü. Ona görə də, bir sıra quberniyalarda xırda istehsal, necə deyərlər, bir növ iri istehsal üçün əlverişli zəmin hazırlamışdı. İslahatdan sonrakı ilk illərdə iri istehsal əsasən toxuculuq və yeyinti sənayesi ilə təmsil olunurdu. Hələ əsrin ortalarından emal sənayesində istehsalın həcminə görə birinci yerdə gedən pambıq-parça sənayesi bu birinciliyi 70-ci illərədək qoruyub saxlaya bilmişdi. Bunun bir əsas səbəbi ağır sənayenin hələ zəif inkişaf etməsi ilə izah edilirdisə, digər mühüm səbəb yüngül sənayenin məhz bu sahəsi üçün hökumətin güclü himayə siyasəti tətbiq etməsi idi (5, 134; 9, 99).

Qeyd etmək lazımdır ki, ilk dəmir yol xətlərinin, xüsusən Nijni-Novqorod dəmir yolunun işə düşməsi, toxuculuq sənayesində böyük canlanma yaratmış, həm də bu sahədə İvanovo sənaye rayonunun rolunu xeyli artırmışdı. 1860-1875-ci illərdə Avropa Rusiyasında adambaşına düşən toxuculuq məmulatı 5 metr təşkil edirdisə, sonrakı 5 ildə bu, 2 dəfə artmış, yəni 10 metrə

qalxmışdı. Əsrin sonunda – 1900-cu ildə isə bu göstərici 18,5 metrə çatmışdı (5, 313).

Əlbəttə, 80-90-cı illərdə sənayenin inkişafına aqrar böhranı təsir göstərərək onu süstləşdirmişdi. Dövlətin sənayeyə maliyyə vəsaiti buraxması işinə Rus-Türkiyə müharibəsinin (1877-1878) mənfi təsiri olmuşdu. Ona görə də 80-ci illərdə həm hasilat və həm də emal sənayesinin ümumi məhsulu yalnız 36 % artmışdı. 1893-cü ildən etibarən başlamış sənaye yüksəlişi bir neçə ildən sonra yenidən böhranla əvəz olundu. Sənaye yüksəlişi illərində pambıq-parça istehsalı 60 % artmışdı. Başqa sənaye sahələrinin inkişafı nəticəsində istehlak malları istehsalı sahələri əvvəlki qabaqcıl rolunu nisbətən itirmişdi. Emal sənayesində toxuculuq – pambıq-parça istehsalı baş rol oynamaqdan çıxmışdı. 60-cı illərdə Amerikada vətəndaş müharibəsinin başlanması ilə əlaqədar olaraq pambıq idxalının azalması sonrakı dövrlərdə də özünü hiss etdirirdi. Rusiya pambığı Amerika və Misirdən alırdı. Toxuculuq sənayesini təkcə gətirilən xammal əsasında inkişaf etdirmək olmazdı. Ona görə Rusiya ucqarlarından Cənubi Qafqaz və Mərkəzi Asiyanı pambıqçılıq regionlarına çevirmək lazım gəlirdi. Mərkəzi sənaye rayonu müəssisələri artıq 80-ci illərdən başlayaraq pambığın 38 %-ni bu regionlardan alırdılar (14, 329). Əsrin sonunda dünya toxuculuq iylərinin 6 %-i məhz rus toxuculuq sənayesində cəmlənmişdi. Rusiya bu sahədə Almaniyadan geri qalırdı (9, 90).

Pambıq parçadan sonra yunun emalı gəlirdi. Lakin bu sahə nisbətən ləng inkişaf edirdi. Kətan istehsalı isə xeyli irəliləmişdi. Əldə olunan kətanın yarısına qədəri ölkənin daxilində işlənir, yarısı isə xarici ölkələrə ixrac olunurdu. XIX əsrin sonunda (1890-1900-cu illərdə) Şərqi Slavyan ölkələrində əyirici iylərin sayının orta illik artımı 220 min, toxucu dəzgahlarınkı isə 6400 ədəd olmuşdu (9, 90; 5, 313). Elə bu dövrdə Vladimir quberniyası iplik istehsalının 25 %-ni, Moskva quberniyası isə hazır parçanın 40 %-ni verirdi (14, 187).

60-70-ci illərdə yeyinti sənayesində də böyük irəliləyiş müşahidə edilirdi. Şəkər sənayesində 1860-1861-ci illərdə adambaşına 1 kq. qənd düşürdüsə, 20 il sonra bu 2 kq.-ya qalxmışdı. Əsrin sonunda adambaşına düşən qəndin miqdarı 5 dəfə artmış, yəni 5 kq. olmuşdu. 70-ci illərin sonundan başlayaraq Şərqi Slavyan ölkələri xaricə qənd ixrac edirdi. 80-ci illərdə Cənub regionu – Ukrayna həm də şəkər sənayesinin mərkəzinə çevrilmişdi. Rusiyada illik istehsal məbləği 6-9 milyon manat olan 10 zavoddan 6-7-si məhz Ukraynada yerləşirdi. Odessadakı şəkər zavodunun illik istehsal məbləği 9 milyon manata yaxın olmuşdu ki, bu da Peterburqdakı ən iri zavodun istehsal məbləğindən 3 milyon manat çox idi. Belə iri zavodlar tək Odessada deyil, Kiyev, Xarkov və başqa yerlərdə də fəaliyyət göstərirdi. Şərqi Slavyan ölkələrində qəndin qiyməti baha olduğuna görə kənd əhalisi ondan az istifadə edirdi. İstehsalın böyük əksəriyyəti ixraca gedirdi. İslahatdan sonrakı ilk 20 il ərzində adambaşına belə sənaye məhsullarının dəyəri 3,5 manatdan 28,5 manata yüksəlmişdi (5, 322).

Artıq sənaye sahəsində qara metallurgiya mərkəzi yer tuturdu. Burada yeni texnika tətbiqi xeyli əvvəl başlasa da bu iş çox ləng, xüsusən dağ-mədən istehsalında, həyata keçirilirdi. Uralda Yekaterinburq – Perm və başqa dəmir yol xətləri işə salındıqdan sonra nəqliyyat işi yaxşılaşsa da sənayedə irəliləyiş o qədər də qabarıq deyildi. 1870-ci ildə Şərqi Slavyan ölkələrində 377 min (24 mln. pud) ton çuqun əridilmişdi (5, 135). Bu, əvvəlki dövrdəkindən bir qədər az idi. Ural zavodlarında təhkimli kəndli əməyindən hələ də istifadə edilməsi qara, eləcə də əlvan metallurgiyanın inkişafında əngələ çevrilmişdi. Təkcə onu demək kifayətdir ki, Ural metallurgiya zavodlarının istifadəsində 4 milyon desyatindən çox torpaq sahəsi vardı (12, 284).

Elə buna görə də əsas diqqət cənuba – Don hövzəsinə yönəldilmişdi. Hələ XIX əsrin birinci yarısında Ukraynada olduqca zəngin dəmir filizi yataqları aşkar edilmişdi. 70-ci illərdə ingilis təbəəsi Yuz burada geniş sənaye fəaliyyətinə başlamışdı. Hökumət sifarişlərinin artırılması onun fəaliyyətini daha məqsədli etmişdi. Yuzun Azovsk və başqa yerlərdə inşa etdirdiyi metallurgiya zavodları ildə orta hesabla 0,5 milyon pud rels istehsal etməliydi (5, 318). Yuzun adına ayrıca «Yuzovski» qəsəbəsi salınmışdı (1924-cü ildə qəsəbənin adını dəyişib Donetsk qoydular). Yuzovska dəmir yol xətti çəkilməsi burada sənayenin yüksəlişinə imkan vermişdi. Donetskdə həm də zəngin kömür ehtiyatları vardı. Dəmir filizi və daş kömür yataqlarının eyni ərazidə yerləşməsi metallurgiya sənayesinin yüksək inkişafını təmin edən əsas şərtlərdən idi. Təkcə Donetsk hövzəsi Ural, Sibir, Mərkəzi Asiya və Gürcüstanın birgə verdiyindən xeyli çox daş kömür verirdi. 80-ci illərdə Donetsk hövzəsi bütün kömürün 80 %-ni verirdisə, 1900-cü ildə bu, 90 %-ə çatmışdı (5, 314). Ona görə də, 80-ci illərdə cənub regionunda – Ukraynada ağır sənaye ocaqları Uralı xeyli arxada qoymuşdu. Əgər 1880-ci ildə burada 1,4 milyon ton kömür çıxarılmışdısa, bu, 1982-ci ildə 3,6 milyon tona və əsrin sonunda (1900-cü ildə) 11 milyon tona çatmışdı (5, 312). 80-ci illərdə Krivoy Roqda yeni dəmir filizi yataqları tapılmışdı. Az sonra Krivoy Roqu Donetsk ilə birləşdirən dəmir yol xətti çəkildi. Belə bir mühüm tədbirdən sonra Ukraynanın bu rayonunda metallurgiya sənayesi görünməmiş sürətlə inkişafa başladı. Xarici kapital axını xeyli güclənmişdi. 80-ci illərin əvvəllərində buradakı 2 metallurgiya zavoduna daha 15 zavod əlavə olunmuşdu. Zavodların inşasını əcnəbi kapital həyata keçirirdi. Ona görə də metal istehsalı xeyli çoxalmışdı. Əgər 80-ci illərdə zavodlarda 1 milyon ton çuqun əridilmişdisə, əsrin sonunda bu rəqəm 2,9 milyon tona (181,3 mln. pud) qalxmışdı (5, 312). Ağır sənayenin inkişaf sürətinə görə Rusiya Avropa ölkələrini xeyli arxada qoymuşdu. Cənub regionunda – Ukraynada zavodların sayca az olmasına baxmayaraq, o Uraldan 2 dəfə çox metal verirdi. Həm də burada əmək məhsuldarlığı Uraldakından xeyli yüksək idi. Çünki Ukrayna zavodları mükəmməl texnika ilə təchiz edilmişdi. Çuqun istehsalında Rusiya Avropanın bir sıra ölkəsini, o cümlədən Belçikanı, Avstriya – Macarıstanı arxada qoymuşdu (5, 315). Əcər 70-ci illərdə çuquna olan ehtiyacın yalnız 35 %-i daxili istehsal hesabına ödənilirdisə, bu, 1900-cü ildə

86 %-ə qalxmışdı. Həm də çuqun istehsalının 1900-cü ildə 57,2 %-ni Cənub regionu – Ukrayna, 28,7 %-ni Ural, qalanını isə başqa rayonlar verirdilər. Əsrin sonunda Rusiya dünyada çuqun istehsalının yalnız 7 %-ni verirdi (14, 195).

Ağır sənayenin mühüm sahələrindən biri də maşınqayırma idi. Maşınqayırma sənayesinin hələ XIX əsrin I yarısında yaranmasına baxmayaraq, onun az-çox inkişafı 60-cı illərin sonu – 70-ci illərin əvvəllərinə təsadüf edir. Metala artan güclü tələbat maşınqayırma müəssisələrinin həm sayca artmasına və həm də məhsul istehsalının çoxalmasına təkan vermişdi. Amma lazım olan əsas məhsul növlərinin çoxu hələ də xarici ölkələrdən gətirilirdi. Ona görə də, 70-ci illərdə iri sənayenin strukturunda maşınqayırma cüzi yer tuturdu. İri sənaye fəhlələrinin yalnız 5 %-i bu kimi müəssisələrdə işləyirdi. Deməli, maşınqayırma sənayesi ləng inkişafdan hələ çıxa bilməmişdi. 80-ci illərdə müəyyən canlanma müşahidə edilirdi. 1861-ci ildə Şərqi Slavyan ölkələrində irili-xırdalı 106 maşınqayırma zavodu 7 milyon manatlıq məhsul vermişdisə (13 min fəhlə ilə), 1900-cü ildə zavodların sayı 682-yə, məhsulun dəyəri isə 142 milyon manata qalxmışdı (121 min fəhlə ilə). Deməli, müəssisələr sayca təxminən 7 dəfə, məhsul istehsalının illik ümumi dəyəri 20 dəfə və fəhlələrin miqdarı 10 dəfə artmışdı. 1869-cu ildə xaricdən gətirilən maşınlara yüksək gömrük haqqı qoyulması (burada kənd təsərrüfatı, toxuculuq və mətbəə maşınları nəzərə alınmırdı) ölkədə maşın istehsalını xeyli yüksəltmişdi. 1897-ci ildə maşınqayırma zavodlarında 583 parovoz, 23,3 min yük vaqonu, 1900-cü ildə isə 1050 parovoz və 32 min ədəd yük vaqonu istehsal edilmişdi. 1885-ci ildən etibarən kənd təsərrüfatı maşınları da gömrüksüz gətirilirdi. Əsrin sonunda ölkədə 181 kənd təsərrüfatı maşınları istehsal edən, 569 metal emal edən və 14 parovoz – vaqon istehsal edən zavod fəaliyyət göstərirdi (5, 316). Göründüyü kimi, 90-cı illərdə maşınqayırma sənayesində böyük yüksəliş vardı. Dəmir yol tikintisinin imperiya üzrə geniş miqyas alması parovoz və vaqonlara böyük tələbat yaratmışdı. Xarkov və Luqaniskdə yeni daha güclü zavodlar tikdirilmişdi. Kənd təsərrüfatı maşınlarının istehsalı da əsasən Ukraynada mərkəzləşmişdi. Bütün bu yüksəlişə baxmayaraq, parovozların 60 %-dən çoxu, sərnişin vaqonlarının təxminən 65 %-i və yük vaqonlarının 41,5 %-i hələ də (1880-ci ildə) xaricdən alınırdı. Əlbəttə, əsrin sonlarına yaxın bu faizlər xeyli aşağı düşmüşdü.

Kimya sənayesi məhsulları əsasən xaricdən gətirilirdi.

70-ci illərin sonu – 80-ci illərin ortalarında Şərqi Slavyan ölkələri sənayesində texniki çevriliş demək olar ki, başa çatmışdı. İngiltərə bu mərhələni keçəndə o dünya bazarına işləyən sənaye ölkəsinə çevrilmişdi. Amma Şərqi Slavyan ölkələri sənayesində texniki inqilab baş verəndə bu ölkələr hələ də aqrar ölkə olaraq qalırdı. Digər tərəfdən İngiltərə bu çevrilişdə bilavasitə öz texnikasına əsaslandığı halda, Şərqi Slavyan ölkələri bu dövrdə qabaqcıl texnikanı başlıca olaraq xarici ölkələrdən gətirirdi. Heç şübhə yoxdur ki, belə bir iş burada texniki çevriliş prosesini xeyli asanlaşdırırdı. Təsadüfi deyildir ki, 1879-cu ildə toxuculuqda məhsulun 90 %-nə qədərini verən fabriklər məhz belə texnika ilə təchiz edilmişdi.

Şəkər sənayesi və kağız istehsalında da bu iş xeyli əvvəl həyata keçirilmişdi. Qara metallurgiya sənayesinin texniki təchizi isə nisbətən ləng gedirdi. Cənub regionunun müəssisələri qərb ölkələrinin mükəmməl texnikası ilə təchiz olunduğu halda, Ural bu cəhətdən hələ də geriliyini saxlayırdı. Başqa sözlə desək, 80-ci illərin əvvəllərində əsas sənaye sahələrində texniki inqilab demək olar ki, həyata keçirilmişdi. Hökumət dəmir yol səhmdar cəmiyyətlərinə və maşınqayırma zavodlarına xaricdən gömrüksüz metal gətirməyə icazə vermişdi. Mineral yanacağa olan tələbat isə heç də tam ödənilmirdi.

Şərqi Slavyan ölkələri sənayesinin strukturunda da müəyyən dəyişiklik baş vermişdi. Dağ-mədən, eləcə də metallurgiya sənayesi 80-ci illərin əvvəlində ümumi sənaye məhsulunun 20 %-ni vermişdisə, öyrənilən dövrün sonunda bu 33 %-dən çox olmuşdu. Sənayenin orta inkişaf sürəti Amerika və Almaniyadan çox idi (14, 195).

Şərqi Slavyan ölkələri sənaye sahələrinin inkişafında xarici kapital özünəməxsus rol oynamışdı. Bu kapital başlıca olaraq metal emalı, maşınqayırma, kimya sənayesinə, eləcə də əlvan metallurgiya və neft sənayesinə güclü nüfuz etmişdi. İslahat ərəfəsində (1857) sənayeyə 9,7 milyon manat əcnəbi kapital qoyulmuşdusa, 1880-ci ildə sənayeyə qoyulmuş əcnəbi kapitalın ümumi məbləği 97,7 milyon manata və 1900-cü ildə isə 214,7 milyon manata qalxmışdı (14, 148). Dəmir yol çəkilişində əcnəbi kapitalist istiqraz şəklində xalq təsərrüfatına daxil olunurdu. Göründüyü kimi, 80-ci illərdən sənayeyə əcnəbi kapital axını təxminən 10 dəfə artmış, sənaye yüksəlişi illərində isə görünməmiş miqyas almışdı. Xarici kapitalın xüsusi çəkisi metallurgiya və daş kömür çıxarılmasında daha güclü olmuşdu. Neft sənayesində də bu kapitalın rolu az olmamışdı. Kapital qoyuluşunda Fransa 1-ci, İngiltərə 2-ci, Almaniya 3-cü və Belçika 4-cü yeri tuturdu. Cənub regionunun metallurgiyasında, daş kömür çıxarılmasında fransız kapitalı üstün idi. Neft və əlvan metallurgiya sənayesində fransız-ingilis kapitalı demək olar ki, eyni-bərabər məbləğdə iştirak edirdi. Elektrotexnika, əlvan metallurgiya, maşınqayırma və bir sıra başqa sahələrdə alman kapitalı üstün idi. Kimya və digər sahələrdə isə Belçika kapitalı yüksək idi. Ural əcnəbi kapitalın ən az toxunduğu region kimi qalırdı. Uraldan kənarda yaranmış sənaye ocaqları daha sürətlə inkişaf edirdi.

Şərqi Slavyan ölkələri iqtisadiyyatında kapitalizmin inkişafı formasiyaya uyğun bank-kredit sistemi yaratmışdı. 70-ci illərin sonunda Avropa Rusiyasının iri şəhərlərində 39 səhmdar bankı yaradılmışdı. Əsrin sonunda isə bankların sayı 43-ə çatmışdı. Bu bankların müxtəlif quberniyalarda yüzlərlə şöbəsi açılmışdı. Təkcə onu demək kifayətdir ki, Cənubi Qafqaz regionunda belə şöbələrdən 30-dan çoxu fəaliyyət göstərirdi ki, bunun da yarıdan çoxu yalnız Azərbaycanın payına düşürdü (15. s. 152).

Şərqi Slavyan ölkələrində fəaliyyət göstərən banklardan bir çoxu, xüsusən Peterburq dünya ticarət bankı, əcnəbi kapitalın sənayeyə qoyulmasında xüsusi rol oynayırdı.

Alman kapitalistləri çox zaman texniki qulluqçularla birgə köçüb buraya gəlirdilər. Əcnəbi kapitalistlərə müxtəlif güzəştlər olunurdu. Əcnəbilərin əldə etdikləri mənfəətin yalnız bir hissəsinin yenidən istehsala qoyulmasına baxmayaraq, onun əsas hissəsi xaricə göndərilirdi. Metal, kömür, maşın və başqa məhsullar isə ölkənin daxili bazarında xırıd edilirdi. Xarici kapitalistlər xalq təsərrüfatının inkişafına etdikləri kömək əvəzinə, necə deyərlər, güclü də «bac» alırdılar. Doğru olaraq deyildiyi kimi, əcnəbi kapital hər hansı bir ölkədə hansı sənaye sahəsinə yönəldilirsə-yönəldilsin, o kapitalizmin inkişafına müsbət təsir göstərir və onun sürətini artırırdı.

Sənayenin yerləşməsinin coğrafiyası xeyli genişlənmişdi. Köhnə mərkəzi-sənaye rayonu və Uralla yanaşı daha mühüm bir rayon – Cənub sənaye regionu meydana gəlmişdi. Kömür çıxarılması və metallurgiya Ukraynada və neft sənayesi Azərbaycanda inkişaf edirdi. Metal emalı zavodları başlıca olaraq Donetsk, Dnepr ətrafında və Azov dənizi sahillərində cəmlənmişdi. Xarkov və Liqansk şəhərləri maşınqayırma mərkəzlərindən hesab olunurdu.

Peturburq, Riqa və Narvada da müxtəlif sənaye sahələri yaradılmışdı. İri sənayenin inkişafı Pribaltika və Peterburqda geniş miqyas almışdı. Mərkəzi – sənaye rayonu müəyyən inkişaf prosesi keçirməsinə baxmayaraq, onun miqyası və strukturu o qədər də dəyişilməmişdi. Burada əvvəllərdə olduğu kimi, toxuculuq sənayesi aparıcı rol oynayırdı. Lakin bu rayonda maşınqayırma və kimya sənayesi də artmaqda idi.

Texniki tərəqqi sürətlənmişdi. Lakin sənaye sahələrinin mexanikləşdirilməsində müxtəliflik vardı. Texnika tətbiqinin miqyası genişləndikcə əmək məhsuldarlığı da yüksəlirdi.

Texnika tətbiqi cəhətdən iri müəssisələr xırda müəssisələrdən xeyli fərqlənirdi. Ona görə də, istehsalın təmərküzləşməsi prosesi belə iri müəssisələrdə baş verirdi. İstehsalın təmərküzləşməsi bütün kapitalist ölkələri üçün xarakterik bir cəhət kimi, bunun əsası istehsalın texnika ilə nə dərəcədə təchiz edilməsindən asılı idi. Şərqi Slavyan ölkələrində sənayenin, xüsusən toxuculuq, maşınqayırma və Cənubun qara metallurgiyasında, təmərküzləşmə dərəcəsi yüksək olmuşdu (9, 299). İstehsalın təmərküzləşməsi toxuculuq sənayesində erkən başlamışdı. Hələ əsrin 40-50-ci illərində toxuculuqda iplik əyirmə, toxuma və naxışvurma sahələrini özündə birləşdirən iri – minlərlə fəhlənin işlədiyi kombinatlar yaradılmışdı. Halbuki İngiltərədə bu sahələr bir qayda olaraq ayrı-ayrı fabrik şəklində mövcud idilər.

Maşınqayırma zavodları adətən bir növ deyil, bir neçə növ məhsul buraxırdılar. Burada da iri müəssisələr yaradılır, bunun üçün külli miqdarda kapital sərf olunurdu.

Nəqliyyat vasitələri istehsal edən zavodlar isə xəzinədən kömək alırdılar.

Cənubun sənayesinə qoyulmuş əcnəbi kapitalın köməyi ilə məhz iri müəssisələr tikilirdi. İstehsalın təmərküzləşməsində səhmdar cəmiyyətlərinin rolu böyük idi (15, 119). K.Marks istehsalın və kapitalın mərkəzləşməsində səhmdar cəmiyyətləri rolu haqqında yazırdı ki, əgər gözlənilsəydi ki, ayrı-ayrı

kapital toplanılsın və bunun əsasında dəmir yollar çəkilsin, onda biz indiyə kimi dəmir yolsuz qalardıq. Halbuki səhmdar cəmiyyətlər buna bir an içərisində nail oldular (8, 485). XIX əsrin sonunda Şərqi Slavyan ölkələri sənayesinə qoyulmuş kapitalın təxminən beşdə-dörd hissəsini səhm kapitalı təşkil edirdi. Akademik S.Q.Strumilinin hesablamasına görə əsrin sonunda sənayeyə qoyulmuş fərdi kapitalın ümumi məbləği 631 milyon manatdan çox deyildi (5, 321).

İstehsalın yüksək dərəcədə təmərküzləşməsi sənayeçilərin inhisar müqavilələri bağlamalarının şərtlərini təşkil edirdi. Şərqi Slavyan ölkələrində ilk inhisarlar əsrin 80-ci illərində meydana gəlmişdi. Rusiyanın iqtisadi həyatında inhisarların bütün formaları mövcud olmuşdu. İlk inhisarlar satış bazarlarında yaranmış çətinliklər, birinci növbədə qiymətlərin aşağı düşməsi ilə əlaqədar meydana gəlmişdi. Ona görə də, belə inhisarlara tarixşünaslıqda satış xarakterli inhisarlar deyilir. Sənayedə əsasən satışla bağlı olan sindikatlar sayca üstünlüyə malik idilər. İlk sindikatlar dəmir yol çəkilişində hələ 80-ci illərin birinci yarısında, az sonra şəkər və ağ neft istehsalında meydana gəlmişdi.

Şəkər sindikatı 1887-ci ildə yaranmışdı. Qiymətlərin aşağı düşməsi bu bağlaşmanı zəruri etmiş və qənd istehsal edən zavodların 90 %-i sindikatın tərkibinə daxil edilmişdi. Qiymətləri qaldırmaq məqsədilə sindikat daxili bazara göndərilən qəndin miqdarını məhdudlaşdırmış, sindikatın üzvü olan zavodlara qənd istehsalı üçün müəyyən normalar (kvota) qoymuşdu. Zavodlar bazarlarda təyin edilmiş normadan artıq qənd sata bilməzdilər. Normadan çox istehsal edilən qənd yalnız xarici bazarda xırıd edilməliydi. Bu şərt pozulduğuna görə (iştirakçıların biri bunu pozmuşdu) sindikat 1895-ci ildə dağıldı (5, 322).

Şəkər zavodlarının çoxu iri mülkədarlara məxsus idi və onların bir hissəsi yüksək dövlət vəzifələrində qulluq edirdi. Ona görə də, sindikat fəaliyyətini dayandıran kimi, 1895-ci ildə qəndin normaya salınması haqqında hökumət qanun verdi. Bu qanuna əsasən daxili bazarda qənd sindikatının qoyduğu şərtə yaxın qiymətlərlə satılmalıydı. Ona görə də, dövlət bu qanunla bir növ sindikatın vəzifəsini öz öhdəsinə götürmüş oldu.

1893-cü ildə isə ağ neft ixrac edənlərin sindikatı təsis edildi. Xarici bazarda, həm də daxili bazarda neftin qiymətini artırmaq üçün yaradılmış sindikatın planları daha geniş idi. Sindikatın tərkibinə daxil olan firmaların arasında mübarizə getdiyinə görə bu sindikatın da ömrü uzun olmadı. Əsrin sonunda bu sindikat da fəaliyyətini dayandırdı (4, 123). Lakin əsrin sonu və XX əsrin ilk illərində Şərqi Slavyan ölkələri iqtisadiyyatını sindikat bağlaşmaları – müqavilələri bürümüşdü.

Kapitalizmin yüksək mərhələsində xalq təsərrüfatının bütün sahələrində səhmdar cəmiyyətlərinin rolu artmışdı. Sənaye müəssisələrinin kapitalistcəsinə təşkilinin bu formaları hələ bir neçə on il əvvəl meydana gəlsə də onların hakim rol oynamaları məhz əsrin sonuna aiddir. İlk qanunvericilik aktı 1836-cı ilə aiddir (15, 53). Əgər 1857-1881-ci illərdə 1360 mln. manat kapitalla 722 səhmdar cəmiyyəti təsis edilmişdisə, 1900-cü ildə cəmiyyətlərin sayı 1506-ya, əsas kapital isə 2467 milyon manata bərabər olmuşdu (15, 138). Əsas sənaye

sahələrində (pambıq-parça, maşınqayırma, metallurgiya, neft sənayesində) səhmdar cəmiyyətlərin timsalında təmərküzləşmənin səviyyyəsi fərqlənirdi. İnhisarlar bir qayda olaraq bu cəmiyyətlər əsasında meydana gəlirdi. İki əsrin ayrıcında Rusiya sənayesində 100-ə qədər inhisar və inhisar birliyi meydana gəlmişdi (14, 299-303). İlk inhisarlar yuxarıda göstərildiyi kimi, şəkər, ağ neft və b. sənaye sahələrində yaradılmışdı. Neft sənayesində təmərküzləşmə səviyyəsi başqa sənaye sahələrindən xeyli yüksək olmuşdu. Təkcə onu demək kifayətdir ki, 90-cı illərin sonunda neft sənayesində fəaliyyət göstərən səhmdar cəmiyyətlərinin 25 %-ni təşkil edən iri cəmiyyətlər neft hasilatının 75 %-ni öz əllərində cəmləşdirmişdi. Neft emalındakı 148 müəssisənin 13-ü bütün neft məhsullarının da 75 %-ni emal etmişdilər (1, 215; 4, 119,123). Əsrin sonunda Şərqi Slavyan ölkələrində sənaye məhsulunun illik ümumi məbləği 4 milyard manat təşkil edirdi.

Kapitalizm inkişafının sosial tərəfi də özlüyündə maraqlıdır. Bu da fəhlələrin təşəkkülü məsələsidir. Gətirilmiş statistik materiallar göstərir ki, bir sıra regionda hələ islahata qədər nəsli fəhlə kadrları meydana gəlmişdi. Ural, Mərkəzi şəhərlər, İvanovo rayonu və başqaları - külli miqdarda fəhlələrin toplandığı mərkəzlər yaranmışdı. İslahatdan sonra kənddə baş vermiş ictimai təbəqələşmə nəticəsində torpaqsızların, aztorpaqlı kəndlilərin – bütövlükdə yoxsulluğun artması kəsbkarlıq axınını gücləndirmişdi. Təkcə 80-ci illərdə 3,7 milyon nəfər kəsbkar vardısa, 90-cı illərdə bu 5-6 mln. nəfər olmuşdu (3, 185).

60-cı illərdə (1865-ci ildə) iri sənayedə 810 min fəhlə vardısa, 80-cı illərin əvvəllərində onların sayı 2 mln. nəfəri keçmişdi. 60-cı illərin ortalarında bütün sənaye sahələrində 3,5 mln. nəfər fəhlə çalışırdısa, 90-cı illərdə onların sayı 10 mln. nəfəri keçmişdi (11, 155; 5, 338). İri sənaye ilə bərabər xırda istehsal sahələrində (araba istehsalı, krujeva toxunması, kətan əyirmə, maldarlıq məhsulu emalı və s.) 7-8 milyon nəfər kəndli məşğul olurdu (11, 363). Bunlar vaxt keçdikcə fabrik-zavodlara işləməyə gedirdilər. Kəsbkarlığın güclənilməsinin qarşısıalınmaz bir proses olduğu haqqında K.Marks 1881-ci ildə V.Zasulicə məktubunda yazırdı ki, torpaq sahibi olan kəndliləri istismar etmək üçün İngiltərə və başqa ölkələrdə olduğu kimi, onları öz torpaqlarından qovmaq lazım deyildir; ümumi mülkiyyəti də bunun kimi fərmanla ləğv etməyə ehtiyac yoxdur. Çalışın ki, onların – kəndlilərin kənd təsərrüfatı məhsullarını çox alın və sizin jandarm və ordunuzun çoxluğuna baxmayaraq, siz onları öz torpaqlarına bağlaya bilməyəcəksiniz (7, 408).

Sənayedəki təmərküzləşmə ilə yanaşı fəhlələrin iri müəssisələrdə, səhmdar cəmiyyətlərə və inhisarlara məxsus fabrik və zavodlarda cəmləşməsi prosesi güclənmişdi. Avropa Rusiyasının əsas sənaye sahələrində iri müəssisələrdə fəhlələrin böyük əksəriyyəti cəmlənmişdi. Bəzi milli ucqarlarda təmərküzləşmə prosesi artmışdı. Azərbaycanın neft sənayesində 100 və daha çox fəhlə çalışan firmaların zavodlarında bütün fəhlələrin 60 %-i işləyirdi. Onlardan 7 ən iri firmanın (bütün firmaların 6,7 %-i qədər) müəssisələrində isə bütün fəhlələrin 49,4 %-i toplanmışdı. Bütövlükdə, Bakı sənaye fəhlələrinin 48,6 %-i

100 və daha çox fəhləsi olan müxtəlif sənaye müəssisələrində təmərküzləşmişdi (1, 215; 4, 123).

Fəhlə kadrların sayı bütün regionlarda artmaqda idi. XIX əsrin sonunda Cənubi Qafqazda olan 200 min nəfər sənaye fəhləsinin 110 min nəfərindən çoxu Azərbaycanın payına düşürdü. Mərkəzi Asiyada sənaye fəhlələri yenicə təşəkkülə başladığına görə, burada sənaye fəhlələrinin sayı 10 min nəfərdən çox deyildi.

Bir sıra Avropa ölkəsindən fərqli olaraq, Şərqi Slavyan ölkələrində sənayedə təmərküzləşmə səviyyəsi xeyli yüksək idi.

Nəticə olaraq daha mühüm bir məsələnin üzərində dayanmaq istərdik. Gətirilmiş dəlillər və statistik materiallar bir daha göstərir ki, hələ XIX əsrin sonunda Şərqi Slavyan ölkələrində, eləcə də bir sıra milli ucqarlarda – müstəmləkələrdə inkişaf etmiş sənaye sahələri mövcud idi. Həm də bu sahələrin ən mühümləri səhmləşmə və inhisarlaşma mərhələsinə daxil olmuşdu. Başqa sözlə desək, Şərqi Slavyan ölkələrinin sənayesi inhisarçı kapitalizmin astanasında dayanmışdı. Məlumdur ki, sonrakı dövrdə – XX əsrin əvvəllərində də inhisarçı kapitalizm dövlət – inhisar kapitalizminə qədər inkişaf edə bilmişdi. Amma bu inkaredilməz tarixi həqiqətlər Şərqi Slavyan ölkələrinin iqtisadi inkişaf səviyyəsi haqqında qeyri – elmi fikir söyləməkdə əcnəbi tarixçilərə mane ola bilməmişdi. Onlardan bu həqiqəti etiraf edən bəzi tarixçilər belə bu aşkar faktı haqqında bəhs edilən ölkələrə aid olmayan amillərlə izah etməyə təşəbbüs göstərmişlər. Onlar Şərqi Slavyan ölkələrinin iqtisadi inkişafını, inhisarların sənayedə həlledici rola malik olmalarını etiraf etsələr də bu inkişafı ancaq və ancaq bu ölkələrin iqtisadiyyatına qoyulmuş xarici kapitalın rolu ilə əlaqələndirirlər ki, bu da özlüyündə həqiqətdən çox uzaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 7 cilddə, IV c., Bakı: Elm, 2000, 465 s.
2. Vəliyev T.T. XIX əsrin 60-90-cı illərində şərqi Slavyan ölkələrində kənd təsərrüfatı // Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), № 2, s. 71-78.
3. Дружинин Н.М. Русская деревня на переломе. 1861-1880 гг. М.: Наука, 1978, 287 с.
4. Mahmud İsmayılov, Marat İbrahimov. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı: Elm, 1991, 281 s.
5. История СССР, В 12-ти т-х., Т. I, М.: Наука, 1968, 731 с.
6. Лященко П. История народного хозяйства в России и СССР, II т., М.: Наука, 1956, 491 с.
7. Маркс К., Энгельс Ф. Соч., XIX т., 2-е изд. М.: Политиздат, 1957, 608 с.
8. Маркс К. Капитал, т. III, Москва, Политиздат, 1964, 824 с.
9. Пажитнов К.А. Очерки истории текстильной промышленности дореволюционной России.М.: Наука, 1958, 425 с.
10. Рабочий класс России от зарождения до начала XX в. М.: Наука, 1989, 751 с.
11. Рашин А.Г. Формирование рабочего класса России. М.: Политиздат, 1958, 623 с.
12. Рындзюнский П.Г. Утверждение капитализма в России 1850-1880 гг. М.: Наука, 1978, 295 с.

13. Струмилин С.Г. Черная металлургия в России и СССР. Т. II, М.: Наука, 3-е изд., 1954, 503 с.
14. Хромов П.А. Экономическое развитие России в XIX-XX веках. 1800-1917. М.: Политиздат, 1950, 531 с.
15. Шепелев Л.Е В.К. Акционерные компании в России, Л.: Наука, 1973, 347 с.
16. Яцунский. Социально-экономическая история России XVIII-XIX вв. М.: Наука, 1973, 285 с.

## О РАЗВИТИИ ПРОМЫШЛЕННОСТИ В ВОСТОЧНОСЛАВЯНСКИХ СТРАНАХ ВО II ПОЛОВИНЕ XIX ВЕКА

**Т.Т.ВЕЛИЕВ**

**РЕЗЮМЕ**

После отмены крепостного права в Восточнославянских странах в сельском хозяйстве, а также и в промышленности наблюдался рост производства. Во всех отраслях промышленности произошел технический переворот. В 60-70-х годах ведущая роль в производстве принадлежала текстильной и пищевой промышленности. В 80-90-годах в производстве основное место занимали металлургия, машиностроительная, нефтяная и др. отрасли промышленности. В месте с тем усиливался и процесс формирования промышленных рабочих.

**Ключевые слова:** Восток, промышленность, рабочий, развитие, техника

## THE INDUSTRIAL DEVOLOPMENT IN COUNTRIES OF EASTERN SLAV IN THE II HALF OF THE XIX CENTURY

**T.T.VALIYEV**

**SUMMARY**

Development of production was observed in the agriculture and industry after the liquidation of serfdom. Technical revolutions covered all the areas of industry. İn 60-70 years the leading role of production belonged to the weaving and food industy. However, in 80-90 years metallurgy, machine building, oil and other areas predominanted in the industry. The process of formation of industrial workers intensified as well.

**Key words:** East, industry, worker, development, technology